Qarabağ Dirçəliş Fondu

# Zəngilan rayonunda meşə örtüyünün bərpası

Qarabağ Dirçəliş Fondunun layihələri

# Layihədə nəzərdə tutulmuş ərazinin təsviri

**55 hektar**

Ümumi ərazi

**30 hektar**

Meşə massivi üçün nəzərdə tutulan ərazi

**30 000**

Əkiləcək ağacların sayı



## Eldar şamı

Pinus eldarica

8 000 ədəd

Təbii halda hündürlüyü 21 m-ədək olan ağacdır. İynəyarpaqları qında ikibir və ya üçbir yerləşir. Qının uzunluğu 1sm, iynələrinki isə 8–10 sm olur. İynəyarpaqları yaşıl rəngli, sərt uclu və kənarları xırda dişlidir. Aprel – may aylarında tozlanır. Qozaları ikinci il, avqust – sentyabr aylarında yetişir. Ancaq toxumla çoxalır. Tozlanması anemofildir. Kserofitdir. Havanın quraqlığına və istiliyinə davamlıdır. Torpaq—qrunt şəraitinə tələbkar deyil, torpağın şoranlığına davamlıdır. Azərbaycanda Eldar düzünün qərb hissəsində Eldar oyuğunda təbii halda arealı vardır.



## Göyrüş

Fraxinus exelcior

4 000 ədəd

Göyrüş növündən asılı olaraq, maksimum hündürlüyü 10-30 m arasında dəyişə bilən tam və düz gövdəli ağacdır. Qabığı açıq boz rəngliolub, uzununa və eninə dərin olmayan çatlıdır. Toxumcuqları tutqun qara rənglidir. Toxumları payızda yetişir və qışın ortalarına kimi tökülür. Toxumunun 1000 ədədi 60-72 qram olur. Tez böyüyən bir ağac növüdür, 250 ildən çox yaşaya bilir. Azərbaycanın əksər meşələrində təsadüf edilir. Bəzən dağ meşələrində kiçik sahələrdə kiçik təmiz göyrüş meşələri yaradır. Adətən qarışıq əmələ gətirir. Rütübətli və nəmli iqlimdə daha yaxşı inkişaf edir. Soyuq havaya çox davamlı olan bu ağacın gövdəsi çox sərt və ağ rəngdədir.



## Şərq çinarı

Platanus orientalis

8 000 ədəd

Hündürlüyü 40-50 m-ə, gövdəsinin diametri 1,5-3 m-ə çatan geniş çətirə malik iri ağacdır. Yarpaqları növbəli düzülüşlü, dəyirmi və ya yumurtavari, 3-7 dilimlidir, uzun saplaqlı, üst tərəfi parlaq yaşıl, alt tərəfi qonur-yaşıl, çılpaq və ya seyrək tüklüdür. Birevli bitkidir. Çiçəkləri müxtəlif cinsli, sallanan uzun saplaqlarda 2-dən 70-ə qədər olmaqla şarvari çiçək qrupunda yerləşmişdir. Şərq çinarı işıq və istisevən, torpağa tələbkar bitkidir. Şərq çinarına Böyük Qafqazın cənub yamaclarında, o cümlədən Ağstafa, Gəncə, Göyçay, Bərdə, Zəngilan, Naxçıvan, Ordubad, Yardımlı, Zaqatala, Ağdaş, Şəki, Qəbələ, Bakı və başqa yerlərdə təbii halda rast gəlinir.



## Qlediçiya

3 000 ədəd

Gleditsia triacanthos

10-15 (20) m hündürlüyündə, 60-80 sm-ə qədər diametrində, çətiri dağınıq kürəvi və ya ovalvari ağacdır. Yarpaqları ləlekvari və ya ikiqat-ləlekvaridir, 15-22 sm uzunluğundadır. Çiçək salxımları yarpaqların qoltuğunda yerləşir, uzunluğu (8) 10-12 sm-dir. Paxlaları uzunsaplaqlı, düzgün və çox zaman bir qədər oraqvari əyridir, 20-30 sm uzunluğundadır, enli, dairəvi, tünd-qəhvəyi qonurdur, demək olar ki, açılmayandır, daxildən ətlidir. Qumsal torpaqlarda yaxşı bitir. Dekorativ bitkidir. Balverəndir. Oduncağı möhkəm, bərkdir, dülgərlik və xarratlıq işlərində istifadə olunur. Meyvələri qışda mal-qara tərəfindən yeyilir.



## Həmişəyaşıl sərv

7 000 ədəd

Cupressus sempervirens

Hündürlüyü 30-35 metrə çata bilən ağac növüdür. Çətiri sıx piramidavari, düz qamətli gövdəyə malikdir. İynəyarpaqları kiçik, pulcuqvari tünd-yaşıldır. Qozaları pulcuqlu, kürəvaridir, toxumları kiçikdir, ilk vaxtlar qozaları yaşıl, yetişənə yaxın qəhvəyi rəngdə olur. Torpağa tələbkar deyil, amma münbit torpaqlarda daha yaxşı inkişaf edir. Quraqlığa və kölgəyə davamlıdır, şəhərin əlverişsiz şəraitinə yaxşı dözür. Vətəni Kiçik Asiya və Aralıq dənizi sahili ölkələridir. Krım və Qafqazın park və bağlarında geniş yayılmışdır. Azərbaycanın bütün bölgələrində park və bağlarda becərilir.

# Layihə çərçivəsində tətbiq olunacaq suvarma sistemi

| Sıra | Avadavlığın növü | Ölçü vahidi | Miqdarı |
|---|---|---|---|
| 1 | PE Boru 63 PN25 – "ATL Azertexnolayn" | Metr | 1 000 |
| 2 | PE Boru 63 PN10 – "ATL Azertexnolayn" | Metr | 2 000 |
| 3 | PE Boru 50 PN10 – "ATL Azertexnolayn" | Metr | 1 500 |
| 4 | Damlama borusu 16 (kor) – "Akona" | Metr | 93 200 |
| 5 | Damlatıcı | Ədəd | 30 000 |
| 6 | Nasos aqreqatl (doldurucu) – "EVS 6-6.5-225" | Ədəd | 1 |
| 7 | Filtirasiya sistemi – "Armas" | Ədəd | 1 |
| 8 | Su çəni 15T | Ədəd | 4 |
| 9 | Motopompa – "Tiger OHV" | Ədəd | 4 |
| 10 | Fitinq və aksesuarlar | Dəst | 15% |
| 11 | Generator 52 kVa – "Aksa" APD 52A | Ədəd | 1 |

# İstifadə olunan avadanlıqlar

Meşə sahəsi kənar vasitələrdən təmizlənmiş, əsas və köməkçi borular çəkilmiş, suvarma üçün istifadə olunan çaydan götürüləcək suyu sahəyə çatdıracaq avadanlıqların bir hissəsi qurulmuş, yeni çalalar qazılmış və sahəyə üzvi gübrə gətirilmişdir.

Layihə çərçivəsində dayanıqlı meşə massivinin salınması məqsədilə ərazidə görülən bütün işlər meşəbərpa tələblərinə uyğun formada aparılır.

Resipiyent tərəfindən layihə üzrə 4 əməkdaş cəlb olunmuşdur.



HDPE Borular



Corona Dripper




Generator



Motopompa




Filtirasiya (Disk)



Nasos



Filtrasiya (Qravel)



Damlama Borusu



ECV Nasos

# Layihə çərçivəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təmənnasız görüləcək işlərin təsviri

| Sıra | Xərclərin adı | Ölçü vahidi | Miqdarı |
|---|---|---|---|
| 1 | Ərazinin hamarlanması | Ha | 32 |
| 2 | Sahənin kol-kosdan təmizlənməsi | Ha | 5 |
| 3 | Əkin sxeminə uyğun çala yerlərinin nişanlanması | Ədəd | 30 000 |
| 4 | Əkin materiallarının tingliklərdən maşınlarla əraziyə gətirilməsi ( yüklənməsi və boşaldılması ilə birlikdə | $Metr^3$ | 150 |
| 5 | Əkin materialların əkin yerlərinə daşınması | Ədəd | 30 000 |
| 6 | Əkin üçün çalaların qazılması | Ədəd | 30 000 |
| 7 | Üzvi gübrənin 100 metr məsafədən əraziyə daşınmaqla çalalara verilməsi (hər çalaya 10 kq hesabı ilə) | Çala | 30 000 |
| 8 | Hazır çalalara tinglərin əkilməsi | Ədəd | 30 000 |
| 9 | Əkin suvarılması üçün suyun maşınlarla gətirilməsi | $Metr^3$ | 300 |
| 10 | Əkindən sonra tinglərin suvarılması (hər tingə 10 litr hesabı ilə) | Çala | 30 000 |
| 11 | Doldurma aparmaq üçün çala qazmaq | Ədəd | 3 000 |
| 12 | Hazır çalalara tinglərin əkilməsi | Ədəd | 3 000 |







Qarabağ Dirçəliş Fondu

"Zəfərdən dirçəlişə" meşə massivinin salınması layihəsinə aid dron çəkilişinə aşağıdakı QR kodu skan etməklə keçid ala bilərsiniz:

https://www.youtube.com/watch?v=tPay1rGx29U